# M.Ə.RƏSULZADƏ 1905-1911-Cİ İLLƏR İRAN İNQİLABINDA GÜNEY AZƏRBAYCANIN YERİ HAQQINDA

F.M.ƏLİYEVA
*Bakı Dövlət Universiteti*

1905-1911-ci illər İran inqilabında Güney Azərbaycanın böyük rol oynaması tarixşünaslıqda çoxdan qəbul edilmişdir (1). Bu danılmaz həqiqəti inqilabın gedişində, hadisələrin sürətlə cərəyan etdiyi bir vaxtda söyləmək, yazmaq isə sözsüz ki, daha önəmli sayılmalıdır. Odur ki, M.Ə.Rəsulzadənin 1906-1912-ci illərdə İran inqilabına həsr etdiyi mətbu yazıları böyük maraq doğurur. Məlum səbəblər üzündən M.Ə.Rəsulzadənin zəngin ədəbi-mətbu irsi sovet dövründə elmi mübadilədən çıxarılmışdı. XX əsrin 80-ci illərinin sonunda M.Ə.Rəsulzadə irsi üzərinə qoyulan qadağa aradan götürülür və onun 1906-1912-ci illərdə Azərbaycan mətbuatında İran inqilabına həsr etdiyi silsilə məqalələri işıq üzü görə bilir. Həmin məqalələr onun 1992-ci ildə çap edilmiş əsərlərinin 1-ci və 2002-ci ildə isə 2-ci cildlərinə daxil edilir. M.Ə.Rəsulzadənin tarixi irsinin hərtərəfli öyrənilmədiyini nəzərə alaraq onun Güney Azərbaycanın məşrutə inqilabında yerini səciyyələndirən elmi müddəaların araşdırılmasını tədqiqat mövzusu seçdik.

1905-ci ilin əvvəllərində Rusiya imperiyasında başlanan inqilabı çıxışlar çap hökumətini bir sıra ciddi güzəştlərə getməyə məcbur edir. Bu güzəştlər içərisində ən əhəmiyyətlilərindən biri müstəmləkə xalqlarına öz ana dillərində mətbuat nəşrinə icazə verilməsi idi. Odur ki, 1905-ci ilin yazından başlayaraq Bakıda bir-birinin ardınca qəzetlər çıxmağa başlayır. «Həyat» (7.VI.1905-3.IX.1906); «İrşad» (17.XII.1905-VI.1908), «Təkamül» (16.XII.1906-25.III.1907); «Tərəqqi» (3.VIII.1908-1909) və s. (2, s. 19)

M.Ə.Rəsulzadə adını çəkdiyimiz qəzetlərdə müxbir, redaktor və bəzən hətta naşir kimi fəaliyyət göstərmişdir. Bu qəzetlərin içərisində «Tərəqqi» xüsusi yer tuturdu, çünki M.Ə.Rəsulzadənin sonralar yazdığı kimi «Tərəqqi» Azərbaycanda ana dilində nəşr olunan Avropa tipli ilk gündəlik siyasi qəzet idi və odur ki, M.Ə.Rəsulzadənin İran inqilabına həsr etdiyi məqalələrin böyük əksəriyyəti məhz bu qəzetdə çap edilmişdi (3, s. 428).

XX əsrin əvvəllərində Azərbaycanın şimal hissəsi Rusiyanın, cənubu isə İranın müstəmləkəsi olaraq qalırdı. Lakin Şimali Azərbaycandan fərqli olaraq Cənubi Azərbaycan vahid bir inzibatı bölgüdə birləşdirilmişdi və rəsmi olaraq «Azərbaycan Vilayəti» adlanırdı. «Azərbaycan Vilayəti» - vəliəddin, əyləşdiyi əyalət–valiəhdneşin statusuna malik idi, Təbriz şəhəri isə səltənət evi – «darüssəltənə» adlanırdı, çünki İran taxtının vəliəhdi məhz bu şəhərdə otururdu. Təbriz bir növ ikinci paytaxt sayılırdı (4, s. 29-30).

M.Ə.Rəsulzadə İranda inqilabın başlanmasından çox az sonra, 1906-cı ilin fevralında bu hadisəyə həsr etdiyi ilk yazısını çap etdirir, onun özünün sonralar yazdığı kimi, 1909-cu ilin fevralına, yəni İrana ezamiyyə olana qədər məqalələrini yalnız Bakıya daxil olan rəsmi məlumatlar, teleqraf xəbərləri və habelə rus dilində nəşr olunan mərkəzi və yerli qəzetlərdəki məlumatlar əsasında yazırmış (5). 1909-cu ilin fevralında «Tərəqqi» qəzetinin müxbiri kimi İrana gedən M.Ə.Rəsulzadə (6) sözsüz ki istər İranın özündə, istərsə də Güney Azərbaycanında baş verən siyasi prosesləri yaxından izləyə bilir. Odur ki, bu dövrdən başlayaraq onun yazıları artıq orijinal xarakter daşıyır, onlar bir növ tarixi mənbə olurlar.

M.Ə.Rəsulzadənin İran inqilabına və Güney Azərbaycanda inqilabı hadisələrin gedişinə həsr etdiyi silsilə məqalələr aşağıdakı adlar altında nəşr edilmişdi: «İran işləri», «İran məktubları», «Yol təəssüratı», «İcmalı-siyasi». «İran», «İrana dair», «Təbriz əhvalatı», «Təbrizdən», «İran məktubları (Təbrizdən)», «Səttərxan, Bağırxan nə üçün bəstə getdilər» və s.

M.Ə.Rəsulzadənin əsərlərinin 1-ci və 2-ci cildlərini nəşrə hazırlayan prof. Ş.Hüseynov M.Ə.Rəsulzadənin İran inqilabına həsr etdiyi yazılarını son dərəcə yüksək qiymətləndirir. Ş.Hüseynovun fikrinə görə, bu yazılar böyük səmimiyyət, dərin siyasi və elmi-nəzəri səviyyələri ilə seçilirlər, özü də bu yazılar inqilabın ən qiymətli salnamələridir (5, s. 263). Təsadüfi deyil ki. bir neçə il bundan əvvəl Tehranın «Snehri nəqs» nəşriyyatı M.Ə.Rəsulzadənin 1906-1911-ci illərdə İran inqilabına həsr etdiyi silsilə məqalələrini «M.Ə.Rəsulzadə İran məşrutə inqilabından məlumatlar» adı ilə kitab şəklində çap edir (6, s. 4).

1905-ci ilin dekabrında İranda istibdad əleyhinə məşrutə inqilabı adı ilə məşhur olan xalq hərəkatı başlanır və çox tezliklə Güney Azərbaycanı da hərəkata qoşulur, Təbrizdə, Xoyda, Zəncan və s. nümayişlər keçirilir, bazar və dükanlar bağlanır. M.Ə.Rəsulzadə İranda inqilabi hadisələrin gedişinə həsr etdiyi ilk yazılarında Güney Azərbaycanında inqilabın hərəkatı süjetlərinə toxunmur. O yalnız 1907-ci il fevralın 17-də nəşr etdirdiyi məqalədə ilk dəfə olaraq Təbrizdə başlanan üsyan və Güney Azərbaycanın məşrutə inqilabında yerindən söhbət açır (7, s. 118-120).

M.Ə.Rəsulzadə Güney Azərbaycanın İran inqilabında «böyük rol oynamasının» səbəbləri məsələsinə ötəri də olsa toxunmuşdu. O, bu səbəblər sırasında cənublu azərbaycanlıların Şimalı Azərbaycanda inqilabi hərəkatda iştirak etmələrinin əsas rol oynadığını qeyd edirdi. Qafqaz Vilayətlərində fəhləlik və hamballıq etməklə kəsb-ruzi edən iranlıların əksəri Azərbaycan türkləridir ki, burada Rusiya fəhlələri arasında işləməklə, yoldaşlıq olaraq. hürriyyət və fədakarlıq işlərinə alışmışlar (7, s. 120).

1906-cı il dekabrın 30-da Müzəffərəddin şahın vəfatından sonra vəliəhd Məhəmmədəli şah elan edilir. Yeni şah 1907-ci il yanvarın 19-da keçirilən rəsm tacqoyma mərasiminə I İran Milli Məclisinin üzvlərini dəvət etmir, bununla o istər Məclisə, istərsə də ölkə konstitusiyasına hörmətsizlik nümayiş etdirir (4, s. 396). Məhəmmədəli şahın bu hərəkatı ölkədə – Tehranda, Şirazda, Təbrizdə yeni çıxışlara səbəb olur. I İran Məclisi 1906-cı il noyabrın 7-də açılsa da Azərbaycan əyalətindən seçilmiş 15 deputat Tehrana yalnız fevralın 8-də gəlib çata bilirlər (4). Mə-

həmmədəli şahın əksinqilabı mövqeyinə etiraz olaraq Azərbaycan deputatları Məclisin müzakirəsinə 7 maddədən ibarət ultimatum verirlər. Məclis Azərbaycan deputatlarının ultimatumunu müdafiə edir və hökumətə təzyiq üçün Təbrizdə üsyana başlamağı məsləhət bilirlər (7, s. 119). Beləliklə, 1907-ci ilin fevralında Güney Azərbaycanı – «Azərbaycan Vilayəti» məşrutə inqilabının ilk illərindən İranda inqilabın mərkəzinə çevrilir. M.Ə.Rəsulzadə 1907-ci il fevralın 17-də çap etdirdiyi «İran işləri Axırıncı Vaqiələr» adlı məqaləsində bu haqda belə yazmışdı: «Məhəmmədəli şahın əleyhinə... yalxu bir Tehran əhli deyil, küll İran deməк olmasa da, küll Azərbaycan qalxmışdır. Azərbaycanın mərkəzi olan Təbrizdə... cəmaət muğyan edib böyük bir qələyan içindədir. İran inqilabında Tehrandan keçəndən sonra özü əvvəlinci ad çıxarıb, böyük və mühüm təşəbbüsatı ilə məhşur olan Təbriz əhalisidir.... Xülasə bu günlər Azərbaycan bir atəşi inqilab və ixtilal içində yanıb-yaxılmaqdadır» (7).

M.Ə.Rəsulzadə Təbriz üsyançılarının ultimatumlarının yerinə yetirilməyəcəyi təqdirdə daha radikal tələblər irəli sürəcəkləri niyyətində olduqlarını qeyd edirdi: şahı taxtdan salmaq və müvəqqəti bir hökumət yaratmaq: «böyük və mühüm təşəbbüsatı ilə məşhur olan Təbriz əhalisinin hissiyyatı – intiqamçuyanələri o dərəcəyə çatıbdır ki, hərgah hökumət millət məclisinin tələblərini qəbul eləməsə özümüzə «müvəqqəti bir hökumət» seçəcəyiz» - deyə inqilab ilə nəfəs alıb xəldən (taxtdansalma) dəm vuruyor» (7).

İran inqilabının gedişində həlledici məqamlardan biri vətəndaş müharibəsidir. 1908-ci ilin iyunun 23-də Məhəmmədəli Şahın sərəncamı ilə İran Məclisinin binası top atəşinə tutulmuş, iyunun 24-də isə I İran Məclisi buraxılmış və bir qrup deputat həbs edilmişdi, bununla da əksinqilabı çevriliş baş tutur və ölkədə vətəndaş müharibəsi başlanır. Güney Azərbaycanında vətəndaş müharibəsi 1908-ci ilin iyunundan 1909-cu ilin aprelinə qədər davam etmişdir (4, s. 401). M.Ə.Rəsulzadə Güney Azərbaycanında, xüsusilə Təbrizdə vətəndaş müharibəsinə dair 20-dən artıq məqalə nəşr etmişdi. Güney Azərbaycanda vətəndaş müharibəsinin başlanğıc mərhələsində M.Ə.Rəsulzadə Bakıda yaşayırdı və əvvəllər olduğu kimi məqalələrini yalnız Bakıya daxil olan məlumatlar əsasında yazırdı. Lakin buna baxmayaraq onun məqalələri hadisələrin doğru-dürüst şərhi, təhlili ilə fərqlənirdi. M.Ə.Rəsulzadənin Təbrizdə vətəndaş müharibəsinə həsr etdiyi ilk məqalə «İrana dair» «Təbriz əhvalatı» adı ilə «Tərəqqi» qəzetinin 19 avqust 1908-ci il tarixli nömrəsində çap edilmişdi. Müəllif 1908-ci il avqustun I yarısında Təbrizdə inqilabı qüvvələrin əksinqilabi quvvələrə nisbətən güclü olduğunu göstərir: «bu günlərdə məşrutəçilər nəhayət dərəcədə qüvvətləndilər. On min nəfərdən ziyadə milləttəfənglisi şəhərin tam ətrafında səngərlərdə gecə-gündüz hazır və amadədirlər» (8, s. 188).

1908-ci ilin avqustun sonunda Təbrizdə vətəndaş müharibəsi son dərəcə gərgin xarakter alır. M.Ə.Rəsulzadə 1908-ci il sentyabrın 3-də çap etdirdiyi «Təbrizdən» adlı məqaləsində bu haqda belə yazırdı: «Şimdiyə Təbrizdə bu qədər şiddətli atışma olmamışdır. Məşrutəçilərin bəzi səngərlərinə 3-4 yüz nəfər birdən hücumavər olurdular. Bunların müqabilində 5-10 nəfər məşrutəçi qəhrəmanla dayanıb 15-20 dəqiqəyə qədər bunların qabağını saxlayıb ta mərkəzdən kömək gələnədək bir səngəri buraxmamışlar» (9, s. 191). M.Ə.Rəsulzadə təbrizlilərin bu fədakarlığı-

nın səbəbini Azərbaycan xalqının öz azadlığı uğrunda mübarizəsində görürdü: «hüququnu anlayan adam qəhrəman olarmış» (9).

M.Ə.Rəsulzadə 1908-ci ilin avqust-sentyabr aylarında Təbrizdə əksinqilabi quvvələrə qarşı aparılan müvəffəqiyyətli mübarizənin bütün İranda inqilabi mübarizənin canlanmasında müstəsna rol oynadığını xüsusilə qeyd edirdi: «Məclisi-millinin talana gedib... İranın səadətinə bağlanan ümidlər pozuldu... bir azdan sonra Təbrizdə baş verən etirazımilliliyə ətaləti-qəhriyyə uymuş olan İran əhlini – Mazandaran, Gırman kimi əyalətlərində, hətta Tehranın özündə...belə...cəmaəti həyəcan meydana çıxartdı» (10, s. 227).

Güney Azərbycanın əksinqilabi quvvələrlə mübarizədə bütün İrana örnək olması və qüvvələr nisbətinin məşrutəçilərin xeyrinə dəyişməsində Təbriz əhalisinin və Səttərxanın rolunu qeyd edən M.Ə.Rəsulzadə irticanın təqibinə davam gətirməyib fəal mübarizə mövqeyindən əl çəkib Avropaya pənah aparan liberal liderlərə əldə edilmiş qələbənin möhkəmliyi üçün mütləq İrana qayıtmağı tövsiyə edirdi: İran üzünə açılmış olan bu babu-zəfərə çatmağı yalxu bir Səttərxanı-salar biliqtidarın mücahidə və sücaəti və Təbriz əhalisinin quvveyi-qeyrət və həmiyyətmən danəsinə tapşırmaq onlardan ötrü ağır və müşkül olar. Bu saətdə meydanı-mücahidə də cangüdar olan bu qəhrəmanlara mənəvi köməkliklər lazımdır ki, bu vəzifəni də Avropaya qaçmış olan Tağızadə kimi vükəlayi-millət gərək də röhdə egələr (10, s. 228).

M.Ə.Rəsulzadə 1908-ci il oktyabrın 20-də «Tərəqqi» qəzetində çap etdirdiyi «Harda qaldılar?» adlı məqaləsində Təbrizdə vətəndaş müharibəsinin inqilabçıların xeyrinə qurtaracağı təqdirdə İran inqilabının gedişində əsaslı dönüş olacağını, Məhəmmədəli şahin hakimiyyətindən salınması məsələsinin ortaya çıxa biləcəyindən söhbət açırdı: «Təbriz... üzərinə gəlməkdə olan hücumları gözlənməkdədir!... Hərgah bu dəfə də Səttərxan qalib gəldi, hərgah məscidi və məclisi dağıtmaqda, mücahidini-millət vükəlayi-cəmaəti talan və qətl etməklə söhrət qazanan lyaxovlular da təbrizlilərlə bacarmadılar, o halda şah dəxi həyatından göz çəksin., təxtindən, hökmündən, diriliyindən, hər şeyindən əl çəksin» (11, s. 237). M.Ə.Rəsulzadə inqilabın gedişinin. onun taleyinin məhz Təbrizin mübarizə əzmindən, onların iradəsindən, qətiyyətindən asılı olduğunu göstərirdi: «İranın əhvalı dairəyi – Təbrizdə idarələnir» (11).

M.Ə.Rəsulzadə Azərbaycan xalqının inqilabın qələbəsi uğrunda apardığı mübarizənin bütün İran üçün müstəsna əhəmiyyətinin Bəxtiyar aqsaqqalları bu təklifi tərəfindən də yüksək qiymətləndirildiyini xüsusi vurğu ilə qeyd etmişdi. Məhəmmədli şah Bəxtiyar aqsaqqallarına öz hərbi qüvvələrini Azərbaycana yetirmək və inqilabçılara amansız divan tutmaq sifarişi göndərmişdir. Amma həmişə şahpərəst mövqedən duran Bəxtiyar aqsaqqalları bu təklifi qəbul etmirlər. M.Ə.Rəsulzadə 1909-cu il yanvarın 15-də «Tərəqqi» qəzetində nəşr etdirdiyi «Bəxtiyar eli nə palitika tutuyor?!» adlı məqaləsində bu haqda belə yazmışdır: «İran hökumətinin aşıb-daşıb üstünə gəlməkdə olan selin qabağına çıxartmaq üçün necə ki, məlumdur, lüzumi qədərində nizamlı qoşunu yoxdur. Məhəmmədəli şahın və qeyri-hökumət başında duranların böyük ümidləri Bəxtiyar elinə idi... Bəxtiyar aqsaqqalları Azərbaycan üstünə getmək barəsində şahdan olan təklifi müzakirə etmişlər... Azərbaycan qardaşlarımızın istədiyi millət və vətən haqqıdır ki, onun xeyri və mənafeyi bizim hamımıza gələcəkdir» (12, s. 285-286).

Məşrutə inqilabının gedişində müstəsna rol oynayan şəxslərdən biri də Səttərxan (1867-9.XI.1914) idi. M.Ə.Rəsulzadə Səttərxanı Güney Azərbaycanda demokratik hərəkatın rəhbəri, böyük dövlət xadimi, İran və Azərbaycan xalqlarının qəhrəmanı kimi qiymətləndirirdi. O, Səttərxanla şəxsən üç dəfə görüşmüşdü: birinci görüş 1909-cu il mayın əvvəllərində, Səttərxanla Bağır xanın Təbrizə daxil olmuş Rus qoşunları tərəfindən həbs ediləcəklərindən ehtiyatlanaraq Türiyə səfirliyinə bəstə oturduqları vaxt, ikinci görüş 1910-cu ilin martında Tehranda və nəhayət üçüncü – sonuncu görüş 1910-cu ilin avqustunda – Səttərxanın Tehranda, Ətabək parkında hökumət qoşunları tərəfindən ağır yaralandıqdan sonra M.Ə.Rəsulzadə 1908-ci ilin oktyarbrın 20-də «Tərəqqi» qəzetində nəşr etdirdiyi «Harda qaldılar?» adlı məqaləsində inqilabın gedişinin elmi təhlilini çox yığcam, lakonik şəkildə verir, hadisələrin necə cərəyan edəcəyini proqnozlaşdırırdı. O, çox böyük bir uzaqgörənlik ilə inqilabının taleyinin Güney Azərbaycanda hadisələrin gedişindən, Səttərxanın bu hadisələrə rəhbərlik bacarığından asılı olduğunu mətbuatda açıqcasına yazırdı: «hər hal ilə olsa da, bir azdan sonra Təbriz başında tazə qovğa açılacağı şübhədən xalidir. Həgah bu dəfə də Səttərxan qalib gəldi, hərgah məscidi və məclisi dağıtmaqda, mücahidini, millət vükəlayi-cəmaəti talan və qətl etməklə şöhrət qazanan liyaxovlular da təbrizlilərlə də bacarmadılar, o halda şah dəxi həyatından göz çəksin, təxtindən, hökmündən, diriliyindən, hər şeydən əl çəksin» (11, s. 236-237). M.Ə.Rəsulzadə Səttərxana nəinki Güney Azərbaycanda, həmçinin bütün İranda inqilabın təcəssümü olduğunu böyük iftixarla qeyd edirdi: «Səttərxan, İran inqilabının tamsalı-mütəccəsimi, Səttərxanın məşrutə inqilabından oynadığı müstəsna rolu Rusiyanın İrandakı səfiri Sablin də təsdiqləməli olmuşdu. M.Ə.Rəsulzadə 1909-cu ilin avqustunda «Tərəqqi» qəzetinin xüsusi kimi səfir Sablindən müsahibə götürür. Bu müsahibədə səfir Səttərxanın inqilabı hərəkatda yerini, rolunu son dərəcə yüksək qiymətləndirir, Səttərxanı «Tam İranın sevgilisi olan Səttərxan» adlandırır (3).

1911-ci ilin mayında M.Ə.Rəsulzadə həbs ediləcəyindən ehtiyatlanaraq Türkiyəyə mühacirət etməli olur və 1911-1912-ci illərdə orada nəşr etdiyi «Türk yurdu» adlı məcmuədə «İran türkləri» adlı əsərini çap etdirir. Bu əsərdə M.Ə.Rəsulzadə Güney Azərbaycanın 1905-1911-ci illər İran inqilabında oynadığı roldan söhbət açır və bu rolu, bu yeri aşağıdakı kimi qiymətləndirir: «Azərbaycanın İran məşrutiyyətindəki mövqeyi qəlbin bədəndəki mövqeyi məsafəsindədir. Azərbaycan əhrarənə hərəkatın meydanı, Təbriz isə onun qəhrəmanlıqlar göstərən bir mərkəzi olmuşdur.Təbriz İran inqilabının atəşlər yağdıran bir mənbəyi idi» (13, s. 119).

**QEYDLƏR:**


1. Dadaşlı Ə. 1905-1911-ci illər rus inqilabı və Asiyanın oyanması. Bakı: 1955; Иванов М.Б. Иранская революция 1905-1911 гг. М.: 1957; Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917), Bakı: 1985; Həsənov M. Oyanmış Təbriz və Səttərxan Bakı: 1986.
2. Azərbaycan mətbuat tarixi, Bakı: 2004.
3. Rəsulzadə M.Ə. İran məktubları (müxabiri-məxsusi-muzjan). Rus səfarətində. Əsərləri. I cild, 1903-1909, Bakı: 1992.
4. Cənubi Azərbaycan tarixinin oçerki. Bakı: 1985.
5. Hüseynov Ş. Müstəqilliyin çətin yolu… Biz hara gedirik. Bakı: 1996.

6. Hüseynov Ş. İranda inqilab. Bakıda qiymət, həmrəylik, ümid. «Güney» qəzeti, 2006-ci il 24-30 iyun №25.
7. Rəsulzadə M.Ə. İran işləri. Axırıncı vaqtiələr. Əsərləri, I cild, Bakı: 1992.
8. Rəsulzadə M.Ə. «İrana dair. Təbriz əhvalatı. Əsərləri. I, Bakı: 1992.
9. Rəsulzadə M.Ə.Təbrizdən. Əsərləri, I cild, Bakı: 1992.
10. Rəsulzadə M.Ə.Nə etməli? Əsərləri, I cild, Bakı: 1992.
11. Rəsulzadə M.Ə. Harada qaldılar. Əsərləri, I cild, Bakı: 1992.
12. Rəsulzadə M.Ə. İran işlərinə dair. Bəxtiyar eli nə politika tutuyor?! Əsərləri I cild, Bakı: 1992.
13. Rəsulzadə M.Ə. İran türkləri. – Rəsulzadə M.Ə. Əsərləri, II cild, Bakı: 2001.

## М.А.РАСУЛЗАДЕ О РОЛИ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ИРАНСКОЙ РЕВОЛЮЦИИ 1905-1911 ГОДАХ

**Ф.М.АЛИЕВА**

**РЕЗЮМЕ**

М.Расулзаде в годы Иранской революции 1905-1911 годах опубликовал серию статей в азербайджанской печати, которые посвящены ходу революционных событий и в самом Иране, и в Южном Азербайджане. Именно в этих статьях впервые в азербайджанской историографии был выдвинут тезис об особой роли Южного Азербайджана в Иранской революции.

## M.E.RASULZADE "THE ROLE OF SOUTHERN AZERBAIJAN IN IRANIAN REVOLUTION IN 1905-1911"

**F.M.ALIYEVA**

**SUMMARY**

While M.E.Rasulzade was in Baku within Iranian revolution, he had published articles in Azerbaijan in various editions in first daily political newspaper of Azerbaijan Taraggi, based on editions of the central Russian press and telegraphic messages. There are so many publications about the role of Southern Azerbaijan in Iranian revolution in 1905-1911, but it is necessary to emphasize that M.E.Rasulzade during these events could define the role of Southern Azerbaijan in exact way. As a result, in 1909 in February, as the correspondent of newspaper Taraggi he had gone to Iran and having witnessed, objectively covered current events in the articles, after published in Iran.